Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Press-reliz

Xocalı faciəsini anaraq

1992-ci ilin fevralında Xocalı şəhərinin azərbaycanlı əhalisinə qarşı tayı-bərabəri olmayan qırğın törədilmiş, minlərlə dinc sakin güllәbaranedilmiş, əsir götürülmüş və şəhər yerlə-yeksan edilmişdir.

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan ordusu keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin münaqişəyə qədər 0.94 kv.km ərazisi, 23,757 min əhalisi olan kiçik Xocalı şəhərini ələ keçirdilər.

Dəhşətli gecədən əvvəl xilas ola bilməyən Xocalının 2500 dinc sakini dəhşətli qırğınla üzləşdilər.

Xocalı faciəsi Dağlıq Qarabağ və onun ətrafında gedən münaqişə zamanı ən dəhşətli cinayətlərdən biri olub. Erməni silahlı birləşmələri SSRİ-nin hərbi birləşmələrinin arxası ilə gələrək, heç kəsin Xocalını tərk etməsinə imkan verməyiblər. Nəticədə 613 insan qətlə yetirilmiş, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüş, 76-sı uşaqlar olmaqla 487 sakin şikəst hala salınmış, 6 ailə bütövlüklə öldürülmüş, 26 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini itirmişdir. 56 nəfər xüsusi qəddarlıqla yandırılaraq, başının dərisi soyularaq, başı kəsilərək, gözləri çıxarılaraq, hamilə qadınların qarnı süngü ilə yarılaraq öldürülmüşdür.

Ermənistan rəsmiləri Xocalı da daxil olmaqla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı törətdikləri cinayətlərin məsuliyyətini həyasızcasına boyunlarından atır və faciənin səbəblərini öz təsnifatında qələmə verirlər.

Ermənistan Respublikasının silahlı birləşmələrinin törədilən əməllərdə fəal iştirakı Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının sənədlərində, beynəlxalq media və QHT-lərin, saysız-hesabsız müstəqil mənbələrdə öz əksini tapmışdır.

26 fevral 2008